

Sabir Yusifoğlu

# “Hamı ölümə sürünür...”

*Əziz oxucular, “Ədəbi Turan” səhifəsi olaraq unudulmaz şairimiz Sabir Yusifoğlunu ehtiramla yad edib, yaradıcılığından seçmələri diqqətinizə çatdırırıq.*

### Yenə də o köhnə ömür

Heç nə yazmaq istəmirəm,
guya yazsam nə olacaq?!
...”Qarabağ”ı ağ əsgiyə
göynən yazsam nə olacaq?!

Nəynən silim bu yazını,
alnımda mənnən gedəcək.
...on yaşlı ağ-qara şəklim,
ağlım da mənnən gedəcək.

...yaşamağın dadı qaçıb,
heç ölmək də istəmirəm.
...böyük olmaq Tanrılıqdı,
kiçilmək də istəmirəm.

...yenə də o köhnə ömür, -
səhər evdən, axşam evə.
...ömür boyu yol gedirik, -
oxşar evdən oxşar evə!

### Adın var alnımın güllə yerində...

...nə özün gəlirsən, nə məktubların!
Səninlə gedibmi yox olan yollar?!
Bəlkə Yer üzündən qırılıb düşüb
bizim aramıza yıxılan yollar?!

Qaldığın illərin yan-yörəsindən
seyrəlib çəkildim duman, çən kimi.
Tək sənin yadına düşmürəm deyə
yadımdan çıxıram çıxan can kimi!

...ulduzu tökülüb bizim göylərin!
Nə sən o çiçəksən, nə mən o dəli.
...dadı, duzu qaçmış bu xarabada
hələ ki ölməyib həmən o dəli.

gdarıxan əllərim özündən çıxıb,
döyər qapınızı günün birində.
Mən başdan ayağa başağrısıyam,-
Adın var alnımın güllə yerində...

### Qadın elanı

Dünən,
əlli yaşını qeyd eləyən kişi,
əlli yaşını qeyd eləyən kimi,
gecə yarısı
evdən çıxıb...
və qayıtmayıb.

Şəkli?...
– Hə...
Üzü divara dirənmiş
güllələnən kişi duruşug
gCibində xırdalanmış
50 illiyin
qəpik-quruşu.

Çıxarkən başında ağ saçları,
üzündə sevinc,
gözündə
dərdin istehsalı olan nəmli kədər,
dizində daşlı yolların ufultusu,
əynində qara rəngli bəxt olubg
...onsuz da uzaq gedə bilməyəcək! –
şəxsiyyət vəsiqəsi
və nikah kağızı
məndə qalib...

***

...bağışla gülüm, sənsiz də
axşam olur, səhər olur.
Sənsiz yaşamaq budusa,
bəs ölüm nə təhər olur?!

Sənsiz dalğalanır dəniz,
sənsiz də küləklər əsir.
Bu küləkdə sənsizliyə
dözməyə ürək nə gəzir.

Səni gəzən fikirlərim
döngələrdə çaşıb qalır.
...gecələr bir mən oluram,
bir də küçə işıqları!

...dəyişir hər şeyin dadı,
bu dünya birtəhər olur.
...bağışla gülüm, sənsiz də
gecə keçir, səhər olur.

***

...boğuluruq batan qanda,
dur, əl uzat,
çək, İlahi.
Bu qansız dərdin əlində
tək qalmışıq,
TƏK İlahi!

...o qız top şəklini çəkib,
lüləyə gül taxacaqdı.
Bəlkə də çəkdiyi rəsmə
dünya dönüb baxacaqdı!

...səbrin böyükdü, bilirəm,
nə ilə ölçək, İlahi?
...qanına batmış balanın
şəklin sən də çək, İlahi.

...adlayıb keçə bilmədi,
ikicə yaşın üstündən.
O qızcığazın şəklini
böyüt,
as başın üstündən...

### Torpaq çəkər son şəklimi

Məni sırada gəzməyin,
qırılıb çıxdım qırağa.
...boş günlər ömür doldurur,
yorulub çıxdım qırağa.

...torpaq çəkər son şəklimi!
...dərdimi necə,
çəkərmi?!
...süzülən saf sular kimi
durulub çıxdım qırağa.

...büdrədim,
yıxıldım,
yenə,
qalxıb sarıldım Vətənə!
...sevib, vuruldum Vətənə,
vurulub çıxdım qırağa.

### Mənə bir məktub göndər

...susuzluqda su təki
bəlkə, yadına düşəm.
Mənə bir məktub göndər,
bilim ki, ölməmişəm.

Səndən başqa bilən yox...
...dərdimə bir dərman yaz.
İki kəlmə nədi ki...
Ay gözünə qurban, yaz!

Çox yox, bir varaq göndər...
Vaxtın yoxsa, ağ göndər!
...əllərinin izini
evimə qonaq göndər.

Bilim harda solursan,
ay gülüm, ay bənövşəm.
Mənə bir məktub göndər,
bilim ki, ölməmişəm.

### Yerim Allahın yanında

*(İ.Nəsimiyə)*

...yarı canım yerə düşüb,
yarım Allahın yanında.
Təkdi, təklikdən darıxar,
durum Allahın yanında.

Hamı ölümə sürünür...
Başsız, başçısız sürümü?
...adamlar necə görünür,
görüm Allahın yanında?!

...nəyi varsa “gəl-gəl” deyir,
bulanıb, təzə-tər deyil.
...bura qalası yer deyil,–
yerim Allahın yanında.